# Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub





Foto İlham BABAYEVİNDİR

**Canlarını Azərbaycanın ərazi bütövlüyü yolunda qurban vermiş Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi ölkəmizin bütün ərazisində sentyabrın 27-də saat 12:00-da bir dəqiqəlik sükutla yad olunub.**



AZƏRTAC xəbər verir ki, insanlar şəhid əsgər və zabitlərimizin ruhu qarşısında baş əyib, onların xatirəsinə hörmət və ehtiramlarını bir dəqiqəlik sükutla ifadə ediblər. Dövlət bayraqları endirilib, nəqliyyatın hərəkəti dayanıb, Xəzər dənizinin sahil sularında sıralanan hərbi gəmilərdən fasiləsiz fit səsi verilib, yaylım atəşi açılıb.

Qeyd edək ki,Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli sərəncamına əsasən Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq sentyabrın 27-si Azərbaycanda Anım Günü elan olunub.

Ölkəmizin bütün şəhər və rayonlarında, o cümlədən azad edilmiş ərazilərimizdə anım mərasimləri keçirilib, şəhidlərimiz Azərbaycandakı bütün dini məbədlərdə - məscidlərdə, kilsələrdə, sinaqoqlarda dərin ehtiramla yad olunub, qəhrəman Vətən övladlarının ruhuna dualar oxunub.

Azərbaycan.- 2021.- 28 sentyabr.- S.14.